ETF Working together Learning for life

European Training Foundation

THE EU AGENCY SUPPORTING COUNTRIES TO DEVELOP THROUGH LEARNING



# AZƏRBAYCANDA RƏQƏMSAL TƏHSİL HAQQINDA

QEYDLƏR Avropa Birliyinin rəqəmsal təhsil alətindən istifadənin yeni perspektivləri

# Nə üçün rəqəmsal təhsİlə dİqqət Yetİrməlİ

Rəqəmsal texnologiyalar müasir iqtisadiyyata və sosial həyata sıx inteqrasiya edib. Dünyanı bu texnologiyalarsız təsəvvür etmək çətindir. Rəqəmsal aləmdəki yeniliklərə daha hazırlıqlı olan ölkələr, şübhəsiz ki, məqsədlərinə çatmaqda digərlərindən daha uğurlu olurlar. Bu, fərdlərə də aiddir. Rəqəmsal bacarıqlara daha dərindən yiyələnən insanlar, müasir rəqəmsal vasitələrdən istifadə etməkdə çətinlik çəkənlərə nisbətən karyeralarında daha sürətlə irəliləyirlər. Bununla əlaqədar olaraq, rəqəmsal transformasiya (rəqəmsal texnologiyaların həyatın bütün sahələrinə nüfuz etməsi) cəmiyyət, iqtisadiyyat və fərdlər üçün yeni çağırışlar yaradır. Nəticədə, rəqəmsal texnologiyaların hər kəsə bərabər imkanlar yaratması, məxfilik və gender bərabərliyinin təmin edilməsi, diskriminasiyaya yol verilməsməsi, insanların diqqət mərkəzində olması prinsipinin gücləndirilməsi, ölkənin sosial-iqtisadi həyatında fərdlərin rolunun və aktiv iştirakının artırılması baxımından dövlətlərin geniş müdaxiləsinə ehtiyac yaranır.

Rəqəmsal səriştələrə malik olmaq vətəndaşlar üçün biliyə, yaxşı işlərə və cəmiyyətdə aktiv iştiraka qapı açır və işdə səmərəliliyə gətirib çıxarır. Bu baxımdan, təlim-tədris və qiymətləndirmənin, həmçinin təhsilalanlar və təhsilverənlərin rəqəmsal səriştələrinin inkişaf etdirilməsinə dəstək vermək üçün rəqəmsal texnologiyaların pedaqogikada istifadəsini əhatə edən rəqəmsal təhsil təlim-tədrisə, o cümlədən ömürboyu təhsilə bərabər çıxış, bütün rəqəmsal bacarıqların əldə edilməsi imkanlarının təmin edilməsində mühüm rol oynayır.[1]

## Rəqəmsal təhsil qanunvericilikdə

“Təhsil haqqında”, “Ümumi təhsil haqqında” və “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının Qanunları rəqəmsal təhsilin həyata keçirilməsində dövlətin və təhsil müəssisələrinin rollarını tənzimləyir. Dövlət müasir təhsil mühitinin yaradılması məqsədilə yeni təhsil texnologiyalarından istifadə etməklə, tədris prosesində innovasiyaların tətbiqinə şərait yaratmaq, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları, rəqəmsal tədris resursları və digər texniki vasitələrlə təminatını, (ümumi təhsil və PTT səviyyələri üçün) kadrların hazırlığını həyata keçirmək təhsil sahəsində dövlətin vəzifələrinə aid edilir. Müasir interaktiv təlim metodlarını, innovasiyaları öyrənmək və tətbiq etmək ümumi təhsil sahəsində təhsilverənlərin vəzifələrinə aid edilmişdir. Qanunvericiliyə əsasən, təhsil müəssisələri təhsilalanların informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərmək bacarıqlarını formalaşdırır. Müasir interaktiv təlim metodlarını, innovasiyaları öyrənmək və tətbiq etmək ümumi təhsil sahəsində təhsilverənlərin vəzifələrinə aid edilmişdir.

Rəqəmsal bacarıqlar Azərbaycanın Ömürboyu Təhsil üzrə MKÇ-nin bütün təhsil pillələri və səviyyələri üzrə deskriptorlarında əksini tapmışdır. Səviyyə deskriptorlarına uyğun olaraq, ibtidai təhsil səviyyəsində təhsilalan kompüterdən istifadə edir; ümumi orta təhsil səviyyəsində müasir texnologiyalardan istifadə olunan şəraitdə fəaliyyət göstərə bilir, onlardan məqsədyönlü və mümkün qədər minimal risklə istifadə edə bilir; tam orta və PTT səviyyələrində ümumi informasiya mənbələrindən istifadə edərək, sahəsi ilə bağlı problemləri həll edə bilir.

[1] https://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=CELEX%3A52020XG1201%2802%29

# Azərbaycanda siyasət Sənədlərində Rəqəmsal təhsilin əks olunması

Rəqəmsal təhsil, adətən, təhsilin bütün pillələri və səviyyələrini əhatə edən siyasət və strategiyalara uyğun olaraq həyata keçirilir. 2013-cü ildə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda müasir tələblərə cavab verən və ömürboyu təhsili təmin edən İKT əsaslı təlim metodologiyasına və distant təhsilə uyğun infrastrukturun yaradılması, həmçinin, rəqəmsal təhsil resurslarına çıxışın genişləndirilməsi, təhsillə bağlı media və internet resurslarının inkişafının təmin edilməsi nəzərdə tutulur.[2]

## Haşiyə 1. SELFIE haqqında

SELFIE təhsil müəssisələrində tədrisə dəstək vermək məqsədilə rəqəmsal texnologiyaların necə istifadə edilməsi ilə bağlı özünüqiymətləndirmə aparmaq üçün Avropa Komissiyası tərəfindən hazırlanmış ödənişsiz, ehtiyaca uyğunlaşdırıla bilən bir alətdir. O, təhsil müəssisələrinə özünüqiymətləndirmənin nəticələrindən istifadə etməklə, iştiraka əsaslanan proses vasitəsi ilə rəqəmsal inkişafla bağlı fəaliyyət planları hazırlamağa kömək edir. (https://schools-go-digital.jrc.ec.europa.eu; SELFIE resources | European Education Area (europa.eu)).



[2] Mənbə: https://president.az/articles/9779

# Azərbaycanda SELFIE pilot sınağı

Azərbaycanda SELFIE pilot layihəsi ölkədəki ümumi təhsil və peşə təhsili müəssisələrində innovativ (rəqəmsal) təhsil texnologiyalarının istifadəsinə diqqət yetirilmişdir. 2021 və 2022-ci illərdə keçirilmiş pilot sınaqların məqsədləri təhsil müəssisələrinə özünü-qiymətləndirmə vasitəsi ilə rəqəmsal təhsil sahəsində məlumatlar əldə etməklə rəqəmsal potensiallarını inkişaf etdirməkdə yardım göstərmək, SELFIE-nin həyata keçirildiyi təhsil müəssisələri arasında əlaqələndirməni inkişaf etdirmək və 2023-cü ildə Azərbaycanda SELFIE-nin əhatə dairəsini genişləndirməkdir. SELFIE pilot sınağı seçilmiş 12 pilot təhsil müəssisəsində rəhbərliyin, təhsilverənlərin və təhsilalanların iki-mərhələli özünü-qiymətləndirmələri əsasında aparılmışdır – birincisi 2022-ci ildə, ikincisi isə 2023-cü ildə. Bu pilot sınaqlar zamanı qarşıya çıxan məsələlər gələcəkdə SELFIE-nin Azərbaycanda daha geniş miqyasda tətbiqi, rəqəmsal təhsil siyasətinin təkmilləşdirilməsi və reallaşdırılması üçün nəzərdən keçirilməli olan mümkün tədbirlər üzrə fikirləri formalaşdırmağa kömək etmişdir.

Pilot sınaqlar və SELFIE-nin geniş miqyasda tətbiqi üzrə planın hazırlanması sistem və təhsil müəssisəsi səviyyəsində maraqlı tərəflərlə məsləhətləşmələr vasitəsi ilə həyata keçirilmişdir.

## Haşiyə 2. SELFIE pilotunda iştirak edən maraqlı tərəflərin siyahısı

| Səviyyə (ölkə/yerli) | Maraqlı tərəf | Təsvir |
|---|---|---|
| Ölkə | Elm və Təhsil Nazirliyi, o cümlədən onun tabeliyində olan qurumlar | Siyasətin həyata keçirilməsi |
| Ölkə | Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi | Pilot sınağın əlaqələndirilməsi |
| Ölkə | Təhsildə Keyfiyyət Təminatı Agentliyi | SELFIE-nin keyfiyyət təminatı siyasətlərinə daxil edilməsi |
| Ölkə | Peşə Təhsili üzrə Dövlət Agentliyi | Peşə təhsili müəssisələrində pilotun koordinasiyası |
| Yerli | Bakı şəhəri üzrə Təhsil İdarəsi | SELFIE-nin əhatə dairəsinin genişləndirilməsi ilə bağlı müzakirələr |
| Ölkə | Təhsil İnstitutu | DPİ-də SELFIE-nin əhatə dairəsinin genişləndirilməsi ilə bağlı müzakirələr |
| Ölkə | Dövlət Statistika Komitəsi | SELFIE məlumatlarının milli statistika ilə |

# Pİlot sınağın əsas nətİcələrİ

Aparılmış təhlilə əsasən, rəqəmsal avadanlığın çatışmazlığı, etibarsız və ya aşağı sürətli internet bağlantısı təhsil müəssisələrində texnologiyadan istifadəni çətinləşdirən əsas amillər, ailələrin rəqəmsal səriştəsinin aşağı olması isə evdə (qarışıq təhsildə) texnologiyadan istifadəni çətinləşdirən amil kimi müəyyən edilib. Son illərdə COVID-19 böhranının da tətiklədiyi virtual tədris mühitlərindən istifadə üzrə təhsil müəssisələrinin təcrübəsi qarışıq təhsildə texnologiyadan istifadəyə müsbət təsir göstərən əsas amil olmuşdur. İki pilot sınağın nəticələri bir neçə sahədə eyni meylləri ortaya çıxarmışdır (aşağıdakı haşiyəyə baxın).

### Haşiyə 3. İstifadəçilər tərəfindən müəyyən edilmiş əsas məsələlər

| Sual | 2021 | 2022 |
|---|---|---|
| **Aşağıdakı faktorlar təhsil müəssisəsində rəqəmsal texnologiyalarla tədrisə mənfi təsir göstərirmi?** | Rəqəmsal cihazların çatışmazlığı | |
| **Aşağıdakı faktorlar qarışıq təhsildə rəqəmsal texnologiyalarla tədrisə mənfi təsir göstərirmi?** | Ailələrin rəqəmsal səriştəsinin aşağı olması | |
| **Aşağıdakı faktorlar qarışıq təhsildə rəqəmsal texnologiyalarla tədrisə müsbət təsir göstərirmi?** | Təhsil müəssisəsinin virtual təlim mühitlərindən istifadə sahəsində təcrübəsi | |
| **Əgər son bir il ərzində rəqəmsal texnologiyaların pedaqoji istifadəsi ilə bağlı aşağıdakı davamlı peşəkar inkişaf fəaliyyətlərindən hər hansı birində iştirak etmisinizsə, zəhmət olmasa, bunların sizə faydalılığını göstərin.** | Əməkdaşlıq vasitəsi ilə öyrənmə | |
| **Aşağıdakı sahələrdə rəqəmsal texnologiyaların istifadəsinə nə dərəcədə əminsiniz?** | Təhsilalanlar və valideynlərlə ünsiyyət | |

# Azərbaycanda rəqəmsal təhsilİn gücləndİrİlməsİ üçün selfie-nİn daha genİş mİqyasda tətbİqİ

Elm və Təhsil Nazirliyi tabeliyindəki qurumlarla – Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi, Təhsildə Keyfiyyət Təminatı Agentliyi, Peşə Təhsili üzrə Dövlət Agentliyi, Təhsil İnstitutu, rayon (şəhər) təhsil idarələri ilə – birlikdə 2023-cü ildə SELFIE-nin əhatə dairəsini genişləndirmək üçün aşağıdakı addımlar üzrə fəaliyyətlərin həyata keçirilməsi ilə bağlı razılığa gəlmişdir[3]:

| Addımlar | Əsas siyasət tədbirləri |
|---|---|
| **SELFIE-nin təhsil və təlim kontekstinə uyğunlaşdırılması** | 2023-2024-cü tədris ilində SELFIE-nin geniş miqyasda tətbiqi üçün aşağıdakı versiyalardan birini seçmək olar:<br>1. Bütün ümumi təhsil və peşə təhsili müəssisələrində SELFIE üzrə özünüqiymətləndirmənin aparılması. SELFIE nəticələri əsasında təhsil müəssisələrinin rəqəmsal inkişafla bağlı fəaliyyət planlarının hazırlanmasına daha sonra – inspeksiya keçirilən məktəblərdə başlamaq olar.<br>2. İnspeksiyası aparılan təhsil müəssisələrində SELFIE-ni həyata keçirmək. Bununla, təhsil müəssisələri Məktəbin İnkişaaf Planlarını (MİP) tərtib etməyə daha yaxşı hazırlanacaqlar.<br>3. SELFIE-ni STEAM və (və ya) elektron qiymətləndirmə ilə birləşdirmək və həmin layihələrin həyata keçirildiyi təhsil müəssisələrində tətbiq etmək. Bu halda, təhsil müəssisələri özünüqiymətləndirməyə daha hazırlıqlı olacaq.<br>4. 2023-2024-cü tədris ilində SELFIE-nin həyata keçirilməsinə müəyyən regionda (məsələn, Bakı şəhərində) başlamaq, daha sonra bütün ölkəni əhatə etmək.<br>5. (Dövlət Statistika Komitəsi ilə məsləhətləşməklə) reprezentativ seçməni müəyyən etmək və SELFIE-nin həyata keçirilməsinə seçilmiş təhsil müəssisələrindən başlamaq. |
| **SELFIE-nin daha geniş rəqəmsal təhsil kontekstinə inteqrasiyası** | • Rəqəmsal təhsil konsepsiyasının (strategiyasının) hazırlanması və SELFIE-nin orada əks etdirilməsi<br>• Təhsil müəssisələrində özünü-qiymətləndirmə və fəaliyyət planlarının hazırlanmasının keyfiyyət təminatı qaydalarında, o cümlədən daxili keyfiyyət təminatı mexanizmlərində əks etdirilməsi |
| **SELFIE-nin idarə edilməsi** | • SELFIE-nin təhsil müəssisələrində geniş miqyasda tətbiqi məqsədi ilə Elm və Təhsil Nazirliyinin Ümumi təhsil və Statistika şöbələri, Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi, Təhsildə Keyfiyyət Təminatı Agentliyi, Peşə Təhsili üzrə Dövlət Agentliyi və Təhsil İnstitutunun qərarverici səlahiyyəti olan nümayəndələrindən ibarət və SELFIE milli koordinatorunun sədrlik etdiyi “Təhsildə rəqəmsal inkişaf tədbirlərini əlaqələndirmə komissiyasının” (işçi qrupun) funksiyalarının təsdiq edilməsi |

[3] Metodologiya üçün link: Scaling up and integrating the SELFIE tool for schools’ digital capacity in education and training systems | ETF (europa.eu)

| | |
|---|---|
| | • Elm və Təhsil Nazirliyinin Ümumi təhsil şöbəsi, Peşə Təhsili üzrə Dövlət Agentliyinin Müəssisələrlə iş şöbəsinin İnformasiya və hesabatvermə sektoru, Təhsil İnstitutunun Təhsil texnologiyaları mərkəzi, rayon (şəhər) təhsil idarələri və şöbələrində SELFIE üzrə əlaqələndiricilərin, onların funksiyalarının müəyyən edilməsi<br>• Təhsil müəssisələrində SELFIE üzrə əlaqələndiricilər və nümayəndələrin (əlaqələndiricinin köməkçisi) müəyyən (təyin) edilməsi<br>• Milli SELFIE koordinatorunun rəhbərliyi altında SELFIE-nin sistem və təhsil müəssisəsi səviyyəsində xüsusi məqsəd və ehtiyaclara uyğunlaşdırılması (məs. nümunələr, ümumi suallar, nəticələrin təhlili və fəaliyyət planlarının hazırlanması), məsələn, 2023-cü ildə rəqəmsal bacarıqlara diqqət yetirilməsi<br>• Milli SELFIE koordinatorunun rəhbərliyi altında geniş miqyasda tətbiq məqsədi ilə SELFIE sistemi və resurslarının təkmilləşdirilməsi<br>• Azərbaycanda SELFIE istifadəçiləri arasında əlaqələndirmə, kommunikasiya və qarşılıqlı öyrənməni təşviq etmək üçün MS Teams platformasında təhsil müəssisələrinin SELFIE qrupunun təşkil edilməsi<br>• Peşə Təhsili üzrə Dövlət Agentliyi, Təhsil İnstitutu, rayon (şəhər) təhsil idarələri və şöbələrinin SELFIE üzrə əlaqələndiricilərinə təlimlərin keçilməsi<br>• Təhsil müəssisələri üçün SELFIE ilə bağlı təlimlərin və məlumatlılığın artırılması kampaniyalarının həyata keçirilməsi<br>• SELFIE-nin həyata keçirilməsinin əlaqələndirilməsi<br>• Ölkə səviyyəsində SELFIE, o cümlədən fəaliyyət planlarının hazırlanması üzrə tədbirlərin həyata keçirilməsi. Yaradıcılığı, ideyaları və konkret problemlərin praktik həllini təşviq etmək məqsədi ilə hakatonların təşkilinin nəzərdən keçirilməsi<br>• Peşə təhsili müəssisələrində İş yerində öyrənmə üzrə SELFIE-nin pilot testinin həyata keçirilməsi<br>• SELFIE nəticələrinin monitorinq mexanizminin yaradılması və rəqəmsal təhsil fəaliyyət planlarının həyata keçirilməsi |
| **Təlim, o cümlədən DPİ ehtiyacları** | • SELFIE-nin, o cümlədən SELFIE nəticələrinə əsaslanan məktəb rəqəmsal inkişaf planının hazırlanmasının müəllimlərin davamlı peşəkar inkişafı sisteminə inteqrasiya edilməsi |
| **İllik baxış tsikli** | • Təhsil müəssisələrinə fəaliyyət planlarının həyata keçirilməsi üçün dəstək tədbirlərinin və həvəsləndirmələrin təklif edilməsi |

2023-2024-cü tədris ilində SELFIE-nin tətbiqinə şərait yaratmaq və daha yaxşı nəticələr əldə etmək məqsədilə onun miqyasının genişləndirilməsinə Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən keyfiyyət inspeksiyasına cəlb olunan ümumi təhsil müəssisələrində başlanması təklif olunmuşdur. İnspeksiyadan keçirilən təhsil müəssisələri özünü-qiymətləndirmə prosesinə rəqəmsal və təşkilati cəhətdən daha yaxşı hazırlıqlıdır. 2022-ci ilin sonuna məktəblərdə tədrisin keyfiyyətini yüksəltmək, o cümlədən, məktəb-şagird-vaideyn əlaqələrini daha da gücləndirərək, sağlam və keyfiyyətli təhsil mühiti formalaşdırmaq məqsədi ilə ölkənin bir sıra regionlarında 50 ümumtəhsil müəssisəsində inspeksiya aparılmışdır. SELFIE-nin geniş miqyasda tətbiqi üçün təklif

olunan zaman çərçivəsi aşağıdakı cəsvəldə göstərilmişdir.

| N: | Fəaliyyətlər | İcraçı təşkilatlar | İcra müddəti |
|---|---|---|---|
| 1 | SELFIE-nin təhsil müəssisələrində geniş miqyasda tətbiqi məqsədi ilə Elm və Təhsil Nazirliyinin Ümumi təhsil və Statistika şöbələri, Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi, Təhsildə Keyfiyyət Təminatı Agentliyi, Peşə Təhsili üzrə Dövlət Agentliyi və Təhsil İnstitutunun qərarverici səlahiyyəti olan nümayəndələrindən ibarət və SELFIE milli koordinatorunun sədrlik etdiyi "Təhsildə rəqəmsal inkişaf tədbirlərini əlaqələndirmə komissiyasının" (işçi qrupun) funksiyalarının təsdiq edilməsi | ETN | 2023 (1-2-ci rüblər) |
| 2 | Elm və Təhsil Nazirliyinin Ümumi təhsil şöbəsi, Peşə Təhsili üzrə Dövlət Agentliyinin Müəssisələrlə iş şöbəsinin İnformasiya və hesabatvermə sektoru, Təhsil İnstitutunun Təhsil texnologiyaları mərkəzi, rayon (şəhər) təhsil idarələri və şöbələrində SELFIE üzrə əlaqələndiricilərin, onların funksiyalarının müəyyən edilməsi | ETN, ARTİ, PTDA | 2023 (1-2-ci rüblər) |
| 3 | Peşə Təhsili üzrə Dövlət Agentliyi, Təhsil İnstitutu, rayon (şəhər) təhsil idarələri və şöbələrinin SELFIE üzrə əlaqələndiricilərinə təlimlərin keçilməsi | TSİİ | 2023 (2-3-cü rüblər) və daha sonra |
| 4 | Təhsil müəssisələrində SELFIE üzrə əlaqələndiricilər və nümayəndələrin (əlaqələndiricinin köməkçisi) müəyyən (təyin) edilməsi | ETN, RTİ, PTDA | 2023 (2-ci rüb) |
| 5 | Milli SELFIE koordinatorunun rəhbərliyi ilə SELFIE-nin sistem və təhsil müəssisəsi səviyyəsində xüsusi məqsəd və ehtiyaclara uyğunlaşdırılması (məs. nümunələr, ümumi suallar, nəticələrin təhlili və fəaliyyət planlarının hazırlanması), məsələn, 2023-cü ildə rəqəmsal bacarıqlara diqqət yetirilməsi | ETN, ARTİ, TSİİ, PTDA | 2023 (2-ci rüb) |
| 6 | Milli SELFIE koordinatorunun rəhbərliyi altında geniş miqyasda tətbiq məqsədi ilə SELFIE sistemi və resurslarının təkmilləşdirilməsi | ETN, ARTİ, TSİİ, PTDA | 2023 (2-ci rüb) |
| 7 | Azərbaycanda SELFIE istifadəçiləri arasında əlaqələndirmə, kommunikasiya və qarşılıqlı öyrənməni təşviq etmək üçün MS Teams platformasında təhsil müəssisələrinin SELFIE qrupunun təşkil edilməsi | ETN, PTDA, RTİ, TSİİ | 2023 (3-cü rüb) |
| 8 | Təhsil müəssisələri üçün SELFIE ilə bağlı təlimlərin və məlumatlılığın artırılması kampaniyalarının həyata keçirilməsi | ETN, ARTİ, RTİ, PTDA | 2023 (2-4-cü rüblər) və daha sonra |
| 9 | SELFIE-nin həyata keçirilməsinin əlaqələndirilməsi | ETN, TSİİ, RTİ, PTDA, Komissiya | 2023 (4-cü rüb) və daha sonra |
| 1( | Ölkə səviyyəsində SELFIE, o cümlədən fəaliyyət planlarının hazırlanması üzrə tədbirlərin həyata keçirilməsi | ETN, ARTİ, RTİ, TSİİ, TKTA, PTDA | 2023 (4-cü rüb) və daha sonra |
| 1 | Rəqəmsal təhsil konsepsiyasının (strategiyasının) hazırlanması və SELFIE-nin orada əks etdirilməsi | ETN, ARTİ, TKTA, PTDA, Komissiya | 2024 və daha sonra |
| 1 | Təhsil müəssisələrində fəaliyyət planlarının hazırlanmasının keyfiyyət təminatı qaydalarında əks etdirilməsi | ETN, TKTA, PTDA | 2023-2024 və daha sonra |
| 1 | SELFIE-nin daxili keyfiyyət təminatı mexanizmlərinə inteqrasiya edilməsi | ETN, TKTA, ARTİ | 2023-2024 və daha sonra |

| | | | |
|---|---|---|---|
| 14 | Müəllimlərin davamlı peşəkar inkişafı sisteminə SELFIE-nin inteqrasiya edilməsi | ETN, ARTİ, PTDA | 2023-2024 və daha sonra |
| 15 | Təhsil müəssisələrinə fəaliyyət planlarının həyata keçirilməsi üçün dəstək tədbirlərinin, həvəsləndirmələrin, məsələn, maliyyə dəstəyinin təklif edilməsi | ETN, RTİ, PTDA, Maliyyə Nazirliyi | 2024 və daha sonra |
| 16 | Peşə təhsili müəssisələrində İş yerində öyrənmə üzrə SELFIE-nin pilot testinin həyata keçirilməsi | ETN, RTİ, PTDA, TSİİ | 2023-2024 |

*Cədvəldə istifadə olunmuş ixtisarlar:*

- Cədvəldə istifadə olunmuş ixtisarlar:
- ETN – Elm və Təhsil Nazirliyinin administrasiyası
- RTİ – Rayon (şəhər) təhsil idarələri və şöbələri
- TSİİ – Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi
- TKTA – Təhsildə Keyfiyyət Təminatı Agentliyi
- PTDA – Peşə Təhsili üzrə Dövlət Agentliyi
- ARTİ – Azərbaycan Respublikasının Təhsil İnstitutu








ETF Working together Learning for life
European Training Foundation